**UOT 94 (479.24)**

# AZƏRBAYCAN ƏHALİSİNİN YERLƏŞMƏSİ MƏSƏLƏSİNƏ DAİR (1991-2009-cu illər)

**L.L.HƏSƏNOVA**
***Bakı Dövlət Universiteti***
***L.Letife @mail.ru***

*Məqalədə müstəqillik dövründə keçirilən 1999 və 2009-cu illər əhali siyahıyaalmalarının materialları əsasında Azərbaycan əhalisinin şəhər və kənd yerləri üzrə yerləşməsi, onların xüsusi çəkisi, əhalinin sıxlığı, Bakı, Gəncə, Sumqayıt şəhərləri əhalisinin bir sıra demoqrafik göstəriciləri təhlil edilmişdir.*

**Açar sözlər:** əhalinin yerləşməsi, şəhər əhalisi, demoqrafiya, siyahıyaalma

Əhalinin ən mühüm demoqrafik göstəricilərindən biri də onun yerləşməsidir. Təsadüfi deyil ki, əhali siyahıya almalarının proqramlarında qoyulan suallardan biri də bu istiqamətə yönəlmişdir. Əhalinin yerləşməsi dedikdə onun yaşayış yeri üzrə bölgüsü nəzərdə tutulur. Əhali əsasən şəhər və kənd yerlərində məskunlaşır.

Qlobal tarixi proses olan urbanizasiya XX əsrin əvvəllərində daha da inkişaf etmişdir. 1800-cü ildə dünya əhalisinin 2,9%-i şəhərlərdə yaşadığı halda, 2000-ci ildə bu rəqəm 51,2%-ə çatmışdır (9, 84). Azərbaycan da bu baxımdan müstəsnalıq təşkil etmir. Bu məsələ barədə geniş təsəvvür əldə etmək üçün sovet və müstəqillik dövründə keçirilən əhalinin ümumi siyahıya almalarının nəticələri əsasında tərtib edilən cədvəli nəzərdən keçirək.

SSRİ-də keçirilən əhalinin ilk ümumi siyahıyaalmasının nəticələrinə görə 1926-cı ildə Azərbaycan SSR əhalisinin cəmisi 28,0%-i şəhər əhalisi təşkil edirdi. Sovet dövründə keçirilən sonuncu – 1989-cu il siyahıyaalması zamanı şəhər əhalisi 54,0% təşkil edirdi. Deməli, 1926-1989-cu illərdə Azərbaycanda şəhər əhalisinin sayı 26,0% artmışdı. Sonrakı 10 ildə (1989-1999-cu illər) şəhər əhalisinin sayı 3,0% azalaraq 51,0% təşkil etmişdir. Lakin müstəqillik dövründə keçirilən ikinci – 2009-cu il siyahıyaalması zamanı şəhər əhalisi yenidən 2% azalaraq 53,1%-ə çatdı.

Şəhərlər sənaye, ticarət, nəqliyyat, mədəniyyət və sosial xidmət mərkəzləri kimi ölkənin həyatında mühüm rol oynayırlar. Çox zaman şəhərlər bir-

birindən əhalisinin sayına görə fərqlənirlər. Azərbaycanda əhalisi 100-500 min nəfər olan şəhərləri iri, 500 min - 1 milyon nəfər və daha çox əhalisi olan şəhərləri isə nəhəng şəhərlər hesab edirlər. Bu baxımdan hazırda Gəncə və Sumqayıt şəhərləri iri, paytaxt Bakı şəhəri isə nəhəng şəhərlər sırasına daxildir.

**Azərbaycan əhalisinin yerləşməsi (siyahıya almalar üzrə) 1000 nəfərlə**

| İllər | Əhalinin sayı | O cümlədən | | Faizlə | |
|---|---|---|---|---|---|
| | | Şəhər əhalisi | Kənd əhalisi | Şəhər əhalisi | Kənd əhalisi |
| 1926 | 2313,7 | 649,5 | 1664,2 | 28,0 | 72,0 |
| 1939 | 3205,1 | 1156,8 | 2048,3 | 36,0 | 64,0 |
| 1959 | 3684,2 | 1744,8 | 1939,4 | 47,0 | 53,0 |
| 1970 | 5116,5 | 2549,6 | 2566,9 | 50,0 | 50,0 |
| 1979 | 6026,5 | 3170,0 | 2856,5 | 53,0 | 47,0 |
| 1989 | 7021,2 | 3805,9 | 3215,3 | 54,0 | 46,0 |
| 1999 | 7953,4 | 4053,6 | 3899,8 | 51,0 | 49,0 |
| 2009 | 8922,4 | 4739,12 | 4183,32 | 53,1 | 46,8 |

***Qaynaq***: (1, 19; 8, 8; 2, 24)

Azərbaycanda hər 1000 kv kilometrə 1989-cu ildə 2,2, 1999-cu ildə 2,3, 2009-cu ildə isə 3,86 şəhər düşürdü. Deməli, müstəqillik illərində respublikada hər 1000 kv kilometrə düşən şəhərlərin sayı 1,66 ədəd artmışdır (1, 12, 15; 2, 17).

Bakı şəhəri istər inqilaba qədərki, istər sovet, istərsə də müstəqillik dövründə Azərbaycanın ictimai-iqtisadi, siyasi, mədəni həyatında müstəsna rol oynamışdır. 2009-cu ildə keçirilən əhalinin ümumi siyahıyaalmasının nəticələrinə görə respublikada 77 şəhər, 258 qəsəbə qeydə alınmışdır ki, onun da 59-u Bakı şəhərinin payına düşürdü (5, 17). Hələ 28 yanvar 1897-ci ildə Rusiya İmperiyasında keçirilən bir günlük ilk ümumi demoqrafik siyahıya alma zamanı Bakı şəhərinin əhalisi 112,2 min nəfər olmuşdur (9, 60). 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulanda Bakı şəhərinin əhalisi 312,7 min nəfər qeydə alınmışdır. Sovet dövrünün sonunda keçirilən 1989-cu il siyahıya alması zamanı Bakı şəhərinin əhalisinin sayı 1794,9 min nəfər olmuşdur. Yəni Sovet dövrü adlandırdığımız dövrdə Bakının əhalisi 1482,2 min nəfərə çatmış və ya 5,6 dəfə artmışdır. Başqa sözlə, 1920-1989-cu illərdə Bakı şəhərinin əhalisi 5,74% artmışdır (3, 46). Müstəqillik ərəfəsində keçirilən 1989-cu il (1794,9 min nəfər) və müstəqillik dövründə keçirilən ilk 1999-cu il (1788,9 min nəfər) siyahıyaalmaları müddətində Bakı şəhərinin əhalisinin sayı, demək olar ki, dəyişməmişdir. Bu XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində bütövlükdə SSRİ-də və Azərbaycanda gedən proseslərlə bilavasitə bağlı idi. Həmin dövrdə əslində Bakı və onun ətraf rayonlarının əhalisinin sayı mexaniki şəkildə, qaçqın və məcburi köçkün əhalisi hesabına artırdı. Onların bir hissəsi sonradan başqa rayonlarda yerləşdirildilər və bu zaman düzgün qeydiyyat aparılmırdı. Müstəqillik dövründə keçirilən ikinci – 2009-cu il siyahıyaalması zamanı Bakı şəhərinin əhalisinin sayı 2 045 815 nəfərə çatdı. Yəni 10 il – 1999-2009-cu illərdə Bakı şəhərinin əhalisi 256,9 min nəfər olmuş və ya

14,4% artmışdır. 1991-2009-cu illərdə Bakı şəhərinin əhalisi 1762,2 min nəfərdən 2 045 815 nəfərə çatdı, 13,86% və ya 283 615 nəfər artmışdır (5, 22; 1, 9; 4, 46). Əhalinin 1999-cu il ümumi siyahıyaalmasının nəticələrinə görə respublika əhalisinin (7 953 438 nəfər) 1 788 854 nəfəri və ya 22,5%-i Bakıda yaşayırdı. 2009-cu ildə, yəni müstəqillik dövründə keçirilən ikinci siyahıya alma zamanı respublikanın 8 922 447 nəfər əhalisinin 2 045 815 nəfəri və ya 22,9%-i Bakıda məskunlaşmışdır. Deməli, müstəqillik dövründə keçirilən 1999 və 2009-cu illər siyahıyaalmaları zamanı Bakı şəhərində yaşayan əhalinin faizlə miqdarı təxminən eyni (22,5-22,9%) olmuşdur.

Maraqlıdır ki, 1999-cu ildə respublikada yaşayan 4053,6 min şəhər əhalisinin 1788,9 min nəfəri və ya 44,1%-i Bakı şəhərində məskunlaşmışdı. Həmin ildə respublikanın şəhər əhalisinin 7,38%-i Gəncənin, 6,9%-i isə Sumqayıt şəhərinin payına düşürdü. Başqa sözlə, 1999-cu ildə Bakı, Gəncə və Sumqayıt şəhərlərində respublikanın şəhər əhalisinin 58,4%-i cəmləşmişdi (3, 25-35).

2009-cu ildə respublikada keçirilən əhalinin ümumi siyahıya alması zamanı şəhər əhalisi içərisində Bakı şəhərinin payı 1,1% azaldığı halda (43,2%), Gəncə şəhərinin payı artaraq 15,3%-ə, Sumqayıt şəhərinin payı isə 15,2%-ə çatmışdır. Bütövlükdə bu üç şəhərin əhalisi ümumilikdə şəhər əhalisinin 73,7%-i təşkil etmişdir. Bunların içərisində Bakının yeri xüsusi qeyd edilməlidir.

Hazırda Azərbaycan Respublikasının 86,6 min kv kilometr ərazisinin 2,13 min kv kilometrini Bakı şəhərinin ərazisi təşkil edir. Bu Azərbaycan ərazisinin 2,5%-i deməkdir. Əgər nəzərə alsaq ki, bu ərazidə respublika əhalisinin 22,9%, respublikanın şəhər əhalisinin 43,2%-i yaşayır, onda Bakının ölkəmiz üçün nə qədər böyük önəm daşıdığının şahidi oluruq.

2009-cu ilin məlumatına görə 2 045 815 nəfər Bakı əhalisi 11 rayonda: Binəqədi, Xətai, Xəzər, Qaradağ, Nərimanov, Nəsimi, Nizami, Sabunçu, Suraxanı, Yasamal məskunlaşmışdır (2, 22). Əhalisinin sayına görə bu rayonlardan ən böyüyü (244 841 nəfər) Xətai rayonudur. Ondan sonra 23 853 nəfərlə Yasamal və 231 931 nəfər əhali ilə Binəqədi rayonu gəlir. Bu üç rayonda: Xətai, Binəqədi, Yasamal – 715 303 nəfər əhali yaşayır ki, bu da bütövlükdə Bakı şəhəri əhalisinin 35,0%-ni təşkil edir. Bu rayonlar içərisində əhalisinin sayına görə ən kiçik rayon Səbayıl rayonudur ki, onun da əhalisi 90 238 nəfərdir.

Bakı, Gəncə, Sumqayıt şəhərlərinin əhalisinin artması başlıca olaraq mexaniki artım hesabına, yəni kənd yaşayış məntəqələrindən gələn əhalinin hesabına olmuşdur. Kənd yerlərində işlə təmin olunmayan əhali rayon mərkəzlərində və hətta sənaye şəhərlərində işlə təmin ola bilmirlər və vaxtaşırı olaraq Bakı, Gəncə, Sumqayıt şəhərlərinə üz tuturlar. Bu şəhərlərdə sənaye, ticarət, mədəniyyət mərkəzləri kimi iş tapmaq nisbətən asan olur (10, 137).

Əhalinin sayının artması onun sıxlığına da ciddi təsir göstərir. 1999-cu il siyahıyaalması zamanı Bakı şəhərində hər km$^2$-ə düşən əhalinin sayı 840 nəfər olduğu halda, respublikada bu rəqəm 92 nəfərə bərabər idi. 2009-cu ildə isə bu rəqəm Bakı şəhərində hər km$^2$-ə 120,5 nəfər artaraq 960,5 nəfərə çatdı. Halbuki, həmin ildə respublikada əhalinin sıxlığı 1030,0 nəfərə bərabər idi (5,

22). 2009-cu ildə Bakının əhalisi ən çox sıx olan rayonu Nəsimi rayonu (20 813,2 nəfər km$^2$) idi.

Əhalinin sonuncu siyahıyaalması zamanı əhalisinin sayı 313 249 nəfər olan Gəncə şəhərində hər km$^2$-ə 2847,7 nəfər düşürdü. Elə həmin ildə 309 446 nəfər əhalisi olan Sumqayıt şəhərində əhalinin sıxlığı 3868,1 nəfər idi.

Əhalinin cinsi tərkibinə gəldikdə, 1999-cu il siyahıyaalması zamanı Bakı şəhəri əhalisinin 48,6%-i kişilərdən, 51,4%-i isə qadınlardan ibarət idi. 2009-cu il siyahıya alması zamanı kişi və qadınların sayı arasındakı fərq azalaraq 49,5 və 50,5%-ə bərabər olmuşdur. Elə həmin ildə Gəncə şəhəri əhalisinin 48,32%-i kişilərdən, 51,7%-i isə qadınlardan, Sumqayıt şəhəri əhalisinin 49,0%-i kişilərdən, 51,0%-i qadınlardan ibarət idi. Bu göstəricilər hər 1000 kişiyə düşən qadınların sayında da öz əksini tapmışdır. Belə ki, 2009-cu ildə Bakı şəhərində hər 1000 kişiyə 1021,2 nəfər qadın düşürdü (2, 28). Onu da qeyd edək ki, yuxarıda gətirilən rəqəmlər Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən buraxılan müxtəlif məcmuələrdən götürülmüşdür. Lakin gündəlik müşahidələrimizdən göründüyü kimi respublikanın müxtəlif rayonlarından iş dalınca Bakıya, Sumqayıta, Gəncəyə gələnlərin sayı rəsmi məcmuələrdəki rəqəmlərdən xeyli çoxdur. Onlar müvəqqəti, bəzən mövsümü olaraq şəhərlərə gəlir, orada işlə təmin olur və təbii ki, qeydiyyata düşmürlər. Ona görə də, bu cür əhali axınının qarşısını almaq üçün kənd yerlərində iş yerlərinin sayını artırmaq vacib məsələlərdən biridir.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikası əhalisinin 1999-cu il siyahıya almasının yekunları. I hissə. Bakı: Səda, 2000, 565 s.
2. Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 2009-cu il. 2 cilddə, I c., Bakı: ARDSK, 2010, 629 s.
3. Azərbaycan Demoqrafik göstəriciləri 2002, Bakı: ARDSK, 2002, 324 s.
4. Azərbaycan Demoqrafik göstəriciləri 2006. Bakı: ARDSK, 2006, 427 s.
5. Əhalinin siyahıya alınması 2009: 2 cilddə, I c. Bakı: ARDSK, 2011, 563 s.
6. Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında Azərbaycan Respublikasının qanunu / Azərbaycan Respublikasının qanunvericilik toplusu. 2000, №10, s. 4242-4251.
7. Харченко Л.П. Демография. М.: Омега – Л, 2007, 348 с.
8. Население Азербайджанской Республики 1989 – Сб. стат., Баку, 1991, 313 с.
9. Мурадалиева Э.Б. Города северного Азербайджана во второй половине XIX века. Баку: БГУ, 1991, 169 с.
10. Göyçaylı Ş. Coğrafiya və coğrafi ekologiyanın problemləri. Bakı: ULUİKF, 2004, 267 s.


## К ВОПРОСУ О РАЗМЕЩЕНИИ НАСЕЛЕНИЯ АЗЕРБАЙДЖАНА (1999-2009)


**Л.Л.ГАСАНОВА**


**РЕЗЮМЕ**


В статье на основе материалов переписи населения, проведенных в период независимости Азербайджана в 1999 и 2009 годах, анализируется размещение городско-

го и сельского населения, их общий вес, плотность населения, а так же некоторые демографические показатели городского населения Баку, Гянджи, Сумгаита.

**Ключевые слова**: размещение населения, городское население, демография, перепись

## ABOUT THE DISTRIBUTION OF POPULATION IN AZERBAIJAN (1999-2009 years)

**L.L.HASANOVA**

### SUMMARY

The article, on the basis of materials of the censuses conducted in 1999 and 2009, analyzes distribution of population in Azerbaijan on urban and rural areas, their special weight, density of population, some demographic indications of Baku, Ganja and Sumgait.

**Key words:** distribution of population, urban population, demography, census